# İnsanın xarakteri portretinin əks olunduğu güzgüdür

## Ömrünün 43 ilini dəniz neft sənayesinə həsr etmiş Prezident təqaüdçüsü Vaqif Hüseynov 8-ci onilliyin zirvəsindən arxaya baxanda böyük qürur hissi keçirir

**Fransa filosofu Klod Adrian Helvetsi bildirmişdir ki, xoşbəxtliyə nail olmağın yeganə vasitəsi bilikdir, maarifdir, müdriklikdir. Böyük fransız yazıçısı, dramaturq, şair, publisist Viktor Hüqo isə bu fikirlərə əlavə olaraq qeyd etmişdir ki, xoşbəxtliyə malik olmaq azdır, xoşbəxtliyə layiq olmaq lazımdır.**

Bu gün 8-ci onilliyin zirvəsindən geri baxıb əldə etdiklərini bir kitaba toplayıb səhifələrini vərəqlədikcə illərin izlərindən məmnunluq duyan, istər dəniz neft sənayesinin inkişafına, istərsə də qazandığı təcrübəni gənc mütəxəssislərlə bölüşüb, onlara bu peşənin dərinliklərini öyrədən, bir sözlə, ömrünün 43 ilini dəniz neft sənayesinə həsr etmiş Vaqif Hüseynov xoşbəxtliyə nail olmaqla yanaşı, həmçinin ona layiq olan insanlardandır. Dənizdə neft və qaz hasilatının cığıraçanları olan Azərbaycan neftçiləri dünya neft sənayesinin inkişafına çox böyük töhfə vermiş, ölkəmizi beynəlxalq aləmdə tanıtmışlar.

Ənənəyə sadiq qalaraq Vaqif müəllimin həyat yolu haqqında qısa məlumatı təqdim edirik:

Vaqif Qulu oğlu Hüseynov 1 may 1941-ci ildə Tovuz şəhərində anadan olub. 1959-cu ildə orta məktəbi, 1965-ci ildə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin neft-mədən fakültəsini bitirib, ona neft və qaz yataqlarının texnologiyası və kompleks mexanikləşdirilməsi ixtisası verilib. 1965-1969-cu illərdə "Leninneft" (indiki "Balaxanıneft") Neft Mədənlər İdarəsində neft hasilatı üzrə operator, usta, sahə rəisi işləmişdir. 1969-1679-cu illərdə "Xəzərdənizneft" Birliyində mühəndis, böyük mühəndis, 1979-1988-ci illərdə "Xəzərdənizneftqazsənaye" Ümumittifaq Sənaye Birliyinin birləşmiş dispetçer idarəsinin rəisi, 1988-1991-ci illərdə "Xəzərdənizneftqazsənaye" İstehsalat Birliyinin Mərkəzi Mühəndis Texnoloji Xidmətinin rəisi, 1991-1996-cı illərdə "Neft Daşları" NQÇİ-nin, 1996-2003-cü illərdə "Qum adası" NQÇİ-nin rəisi vəzifələrində çalışmışdır. 2003-2012-ci illərdə "Neftqazelmitədqiqatlayihə" institutunun direktorunun müavini, daha sonra isə müşaviri işləmişdir.



Qeyd etdiklərimiz yubilyarın "protokol" qaydalarına uyğun olaraq təqdimatıdır. Keçilən yolun təhlili bu ümumiləşdirməyə əsas verir ki, Vaqif müəllimin özünətələbkarlığı, işə bağlılığı, məsuliyyəti, ona göstərilən etimadı yüksək səviyyədə doğrultması kimi keyfiyyətləri bütün vəzifələrin öhdəsindən layiqincə gəlməsinə yol açıb. Əbəs yerə deyilmir ki, insanın xasiyyəti onun portretinin əks olunduğu güzgüdür. Çünki kamil insan hər şeyi özündə axtarır.

Vaqif Hüseynov Xəzər dənizi yataqlarından neft və qazın çıxarılması, hazırlanması, təhvil verilməsi üçün tikilən və istismara buraxılan obyektlərin, demək olar ki, çoxunda bilavasitə iştirak etmişdir. Neftqazçıxarma idarələrində neft və qazın çıxarılması texnologiyasına aid və neftin standarta uyğun təhvili məsələləri o illərdə də günün əsas tələblərindən idi və bunların müvəffəqiyyətlə həll edilməsində Vaqif müəllim əzmkarlıqla iştirak edib. Vaqif Hüseynov əmək fəaliyyətinə başladığı illərdə təcrübəli insanlardan əldə etdiklərini istehsalata tətbiq etməklə özünün bu illərdə qazandıqlarını da növbəti nəslə öyrədib, bununla da işin keyfiyyətinin artırılmasına dəstək olub.

Bir mühüm məqamı da nəzərə alaq ki, bu il 72 illik yubileyini qeyd edəcək "Möcüzələr adası", "Dünyanın səkkizinci möcüzəsi" adlandırılan Neft Daşları yüksək peşəkar neftçi kimi yetişməkdə böyük məktəbdir. 72 il bundan əvvəl bünövrəsi qoyulmuş bu mühüm tarixi hadisənin əhəmiyyəti bu gün bu sahədə aparılan işlərin zirvəsindən daha möhtəşəm görünür. Bu baxımdan ki, açıq dənizdə yerləşən nadir "Neft Daşları" yatağının kəşf edilməsi dünya neftçıxarma sənayesinin inkişafında böyük hadisə olmuşdur. Bütün bilik və bacarığını dəniz neft sənayesinin inkişafına, neft və qazçıxarma texnika və texnologiyanın təkmilləşdirilməsinə sərf edən Vaqif Hüseynov da beş il, 1991-1996-cı illərdə "Neft Daşları" NQÇİ-nin rəisi vəzifəsində çalışıb. Bu illər ərzində Vaqif müəllim çox işlər görmüş, çətinliklərlə rastlaşmış, onların öhdəsindən uğurla gəlmişdir.

Neft sənayesini ölkə iqtisadiyyatının onurğa sütunu kimi dəyərləndirən müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bütün sahələr kimi neft sənayesinin də inkişafında yeni mərhələ başlamışdır. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın malik olduğu təbii resurslardan səmərəli istifadəni təmin etdi, bütün istiqamətlərdə davamlı uğurlara imza atıldı. Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra Azərbaycanın neft sənayesinin inkişafında başlanan yeni mərhələdən, Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin uğurlarından hər zaman məmnunluq hissi ilə bəhs edən Vaqif Hüseynov neftçi əməyinin dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsini də xüsusi qeyd edir. Tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişinin imzalandığı tarixin - 20 sentyabrın ümummilli lider Heydər Əliyevin Fərmanı ilə Neftçilər Günü kimi təsis olunması da neftçi əməyinə verilən yüksək dəyərin göstəricisidir. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, iqtisadi müstəqilliyinin təmin olunmasında ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının rolu böyükdür. Əgər 1994-cü ildə, çətin dövrdə bütün təzyiqlərə və hədə-qorxulara baxmayaraq, Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanda nəinki neft sektorunda, ümumiyyətlə, iqtisadi sahədə inkişafdan söhbət gedə bilməzdi.

Bayram Bayramovun əfsanəvi Neft Daşlarını kəşf edən, onu qurub-yaradan və bu şərəfli işləri bu gün də layiqincə davam etdirən insanlara ithaf olunan "Neft Daşları-tufanlar qoynunda həyat" kitabında Azərbaycan neftçilərinə şöhrət gətirən alim və mütəxəssislərdən biri kimi Vaqif Hüseynovun adının olması da onun "Möcüzələr adası"nda əldə etdiyi təcrübənin sonrakı fəaliyyətində oynadığı rola bir daha işvq salır. Dövlətimizin başçısı İlham Əliyevin "Möcüzələr adası" haqqında "Dünya miqyasında dənizdə ilk dəfə olaraq neft çıxarılması məhz Azərbaycan neftçiləri tərəfindən başlanmışdır. Bu gün "Neft Daşları" yaşayır. "Neft Daşları"nda aparılan quruculuq-abadlıq işləri məni çox sevindirir. Həm neftçilərin məişət şəraiti yaxşılaşır, həm də "Neft Daşları" abadlaşır, gözəlləşir. Eyni zamanda, "Neft Daşları"nda Azərbaycan neft sənayesi üçün əvəzolunmaz texniki qurğular yaradılır. "Neft Daşları" həmişə Azərbaycan xalqının qəlbində yaşayacaqdır. "Neft Daşları" Azərbaycan xalqının, Azərbaycan dövlətinin ayrılmaz bir dəyəridir, çox gözəl inkişaf nümunəsidir." Bu fikirlər dəniz neftçilərinin devizinə çevrilib.

Vaqif Hüseynovun 2003-cü ildən 2012-ci ilə qədər "Neftqazelmitədqiqatlayihə" institutunun direktorunun müavini, daha sonra müşaviri vəzifəsində çalışdığı dövrlər isə ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, onun başladığı işləri uğurlu sonluqla başa çatdıran cənab İlham Əliyevin Prezident kimi fəaliyyət göstərdiyi illərə təsadüf edir. Dövlətimizin başçısı İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı gündən "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürərək bu məqamı da xüsusi qeyd etdi ki, inkişaf etmiş ölkələrin təcrübəsinə diqqət yetirsək onları irəli aparan elmdir, bilikdir, yeni texnologiyalardır. Elmin, təhsilin və iqtisadiyyatın birliyinin yaradılması fonunda davamlı uğurlara imza atmaq mümkündür. İqtisadiyyatın elmi əsaslara söykənməsi bütün dövrün tələblərini düzgün dəyərləndirməyə geniş imkanlar açacaq. Neft-qaz gəlirlərinin düzgün idarə olunması nəticəsində iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla həyata keçirilir. Dövlətimizin başçısı İlham Əliyev bu məqamı da daim önə çəkir ki, Azərbaycan alimləri dünya elm tarixinə böyük töhfələr vermişdir. Azərbaycanı dünyada tanıdan yerləşdiyi coğrafi məkan, malik olduğu təbii resurslarla yanaşı, elmi potensialıdır.

Əvvəldə də qeyd etdiyimiz kimi, tələbkar, işini sevən, məsuliyyətli, işçilərə hörmətlə yanaşan, onların hörmətini qazanan Vaqif Hüseynova hörmət və məhəbbət sonsuz olub və bu gün də bu sevginin fonunda irəliyə böyük həvəslə, ruh yüksəkliyi ilə baxır. Hər bir insanın çalışdığı sahədə uğurlar qazanmasında ən ümdə keyfiyyət onun xarakteridir. Məsuliyyət və özünətələbkarlıq olan yerdə uğur qaçılmaz olur. Amma bir məqamı da unutmayaq ki, uğur bəzən insanları soyuqqanlılığa, ətrafı görməzdən gəlməyə sövq etsə də, Vaqif Hüseynov bu xüsusiyyətlərdən uzaqlığı ilə özünə böyük sevgi qazanıb. "Əl tutmaq Əlidən qalıb" prinsipini həyatının əsas amalına çevirən Vaqif müəllim ona ümid ünvanı kimi baxan insanları heç zaman ümidsiz geri qaytarmayıb. Bu, onun böyüklüyünün, mərhəmətinin, yalnız bu günü deyil, sabahı üçün yaşamasının təsdiqidir. Əbəs yerə deyilmir ki, gələcəyə keçmişimizlə addımlayırıq. Onu tanıyan, ən əsası dost deyib qucaq açdığı insanlar Vaqif müəllimin əsl dost olduğunu böyük qürurla qeyd edirlər. Məhz bu keyfiyyətlər onu çalışdığı hər bir işdə sevdirib, uğur dalınca uğur gətirib.

Ömrünün 43 ilini dəniz neft sənayesinə həsr etmiş Vaqif Hüseynov bu illər ərzində dəniz neft sənayesinin inkişafında xüsusi xidmətləri olan bir çox korifeylərlə, o cümlədən Ələkbər Süleymanov, Nəsrulla Babayev, Bəxtiyar Məmmədov, Qurban Abbasov, Bəhmən Hacıyev, Xoşbəxt Yusifzadə, Akif Cəfərov, Namiq Əfəndiyev, Natiq Əliyev və digər şəxslərlə birgə işləmiş, yeni texnika və texnologiyanın tətbiqində səylə çalışmışdır. Hər bir neft sənayesinin öyrənilməsində canlı ensiklopediya olan bu insanların ayrı-ayrılıqda əldə etdiyi uğurların miqyasına diqqət yetirdikdə onların neft sənayesinin inkişafına töhfələri barədə aydın təsəvvür yaratmaq olur.

Vaqif müəllim yalnız istehsalatda çalışmaqla kifayətlənməyib, elmi fəaliyyətlə də məşğul olub. O, neft-qaz hasilatının sabitləşdirilməsi, artırılması və yataqların işlənməsi istiqamətində qarşıya çıxan problemlərin həllinə yönəldilmiş 30 elmi məqalənin, 4 ixtiranın və 4 kitabın müəllifi, texniki elmlər üzrə fəlsəfə doktorudur.

43 ilin addım-addım qazanılan uğurlarını bir yazıda əhatə etmək qeyri-mümkündür. Doğum günündə əsas olan yubilyarın əmək fəaliyyətini zəngin edən mənəvi dünyasının oxuculara təqdim edilməsidir. Mənəvi zənginlikdən bəhrələnən bu uğurlar Vaqif müəllimin təqdimatını zəngin edir. Vaqif Hüseynovun əməyi, neft və qaz sənayesinin inkişafına verdiyi töhfələr dövlətimiz tərəfindən daim yüksək dəyərləndirilib. O, "Neft sənayesinin əlaçısı" adına layiq görülmüşdür. Dəniz Neft Sənayesinin 50 illik yubileyi ilə əlaqədar respublikanın neft və qaz sənayesinin inkişafındakı xüsusi xidmətlərinə görə Dövlət Neft Şirkətinin "Fəxri Fərmanı" ilə təltif olunmuşdur. Onu da qeyd edək ki, Dəniz Neft Sənayesinin 50 illik yubileyi ulu öndər Heydər Əliyevin 7 noyabr 1997-ci il tarixli Sərəncamı əsasında qeyd olunmuşdur. Dünyada dənizdən neft və qazçıxarmanın inkişafında Azərbaycan neftçilərinin misilsiz töhfə verdiklərini nəzərə alan Ümummilli Lider Dəniz neft Sənayesinin 50 illik yubileyinin dövlət səviyyəsində bayram edilməsi ilə bağlı belə bir sənədi imzalamışdır. Dövlətimizin başçısı İlham Əliyevin 18 sentyabr 2010-cu il tarixli "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında" Sərəncamına uyğun olaraq isə Vaqif Hüseynov Azərbaycanın neft sənayesində səmərəli fəaliyyətlərinə görə Prezident təqaüdçüsüdür. Hal-hazırda "Neftçilər klubu" İctimai Birliyinin sədridir.

Onu da qeyd edək ki, dünən (3 may) 80 illik yubileyində SOCAR-ın "Fəxri nişanı" döş nişanı ilə təltif olunan Vaqif Hüseynovu qəbul edən SOCAR-ın prezidenti Rövnəq Abdullayev ona xoş arzularını çatdırmış, dəniz neft sənayesinin inkişafına xidmətlərindən böyük qürur hissi ilə bəhs etmiş, hər bir məktəbin bir yenilik, gələcəyimiz üçün möhkəm təməl olduğunu bildirmişdir.

Bu mühüm məqamı bir daha təkrar-təkrar qeyd etmək istərdik ki, Vaqif müəllimin ən böyük mükafatlarından biri ona xalqımızın, təmsil olunduğu neftçi ailəsinin sevgisidir. Bu sevgi də hər kəsə nəsib olmur. Demək Vaqif müəllimin xoşbəxtlik düsturunda bu sevgini qazanmağın şərtləri də öz əksini tapıb. 8-ci onilliyin zirvəsindən geri baxanda yaşadıqlarından qürur duyan Vaqif müəllimə bir daha cansağlığı, uzun ömür, arxada qalan illərin işığında böyük güc-qüvvət, enerji arzulayırıq. İşinin vurğunu olaraq uğurların arxasınca gedib bu günü üçün zəngin dünya yaradan Vaqif müəllim, doğum gününüz mübarək!

✍ **Yeganə Əliyeva,**
***"İki sahil"***